# "Yaşanmış ömür" kitabının təqdimatı




***Həyat təcrübəsi, sağlam təfəkkür və dərin dünyagörüşü ilə seçilən insanlar həmişə cəmiyyətdə özlərinə xüsusi bir yer tutublar. Onlar həm də ətraflarına müsbət təsir edərək, sosial və mədəni sahələrdə böyük iz buraxmaqda bacarıqlı olurlar. Bu insanlar öz əməlləri və davranışları ilə başqalarına örnək göstərilir, ümumi rifah və inkişaf yolunda vacib addımlar atırlar.***



Qərbi Azərbaycan ziyalılarından olan Tapdıq Novruzov da bütün ömrünü gənclərin elm və təhsilə yiyələnmələrinə həsr etmişdir. O, Qərbi Azərbaycanda Azərbaycan dilində çıxan yeganə mətbuat orqanı "Sovet Ermənistanı" qəzetində müxbir olub. Həmçinin qəzetimizdə dərc edilən "Azərbaycanlıların deportasiyası xüsusi qəddarlıqla həyata keçirilirdi" məqaləsinin də müəllifidir.

Yanvarın 30-da Qərbi Azərbaycan İcmasında görkəmli ziyalı Tapdıq Novruzovun işıqlı ömür yoluna həsr edilmiş "Yaşanmış ömür" adlı kitabın təqdimat mərasimi baş tutub. Kitabda "Orda yurdumuz qaldı", "Tapdıq Novruzovun dövri nəşrlərdə çap olunmuş məqalələri", "Tapdıq Novruzovun çap olunmamış məqalə və şeirləri" və "Yaddaşlara köçən ömür xatirələr işığında" hissələrinə yer verilib. Kitabın müəllifi əməkdar elm xadimi, Azərbaycan SSR Dövlət mükafatı laureatı, AMEA-nın həqiqi üzvü - akademik, fizika-riyaziyyat elmləri doktoru, professor Cəlal Allahverdiyevdir.

Tədbirdə çıxış edən **Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli** bildirdi ki, Tapdıq Novruz Qərbi Azərbaycanın təhsil və mətbuat tarixində özünəməxsus yer tutmuş şəxsiyyətlərdən biridir: "Bu kitab təkcə Tapdıq Novruzovun həyatından bəhs etmir, eyni zamanda həm də onun timsalında bütün Qərbi azərbaycanlıların vaxtilə öz torpaqlarında keçirdiyi güzərandan söhbət açılır. Kitabı vərəqlədikcə, öz ailəmlə bağlı oxşar məqamlara rast gəlirəm. Kitabda maraqlı hadisələrdən, o cümlədən iki gəncin İrəvana olan səfərindən xatirələrdən bəhs olunur. Bu baxımdan kitab həmin dövrdə baş vermiş hadisələr haqqında məlumat əldə etmək baxımından önəmlidir".

Daha sonra **sabiq təhsil naziri, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, professor Misir Mərdanov** kitabın ərsəyə gəlməsində Vahid müəllimə təşəkkür edərək, bunu onun "övladlıq borcu" adlandırıb. "Mən kitabı nəzərdən keçirdim, lakin Tapdıq müəllim haqqında daha çox şəxsiyyəti və münasibətləri baxımından danışmaq istəyirəm. O, universitet illərində tanıdığım çox maraqlı və unikal bir insan idi," - deyə Misir Mərdanov qeyd edib. O, həmçinin Qərbi Azərbaycan torpaqlarının çoxlu sayda tanınmış şəxs yetişdirdiyini və bu cür kitabların yazılmasının tarixi yaddaşın qorunması baxımından vacibliyini vurğulayıb: "Təəssüf ki, bu insanlar haqqında yetərli məlumat yoxdur. Belə kitablar gələcək nəsillərə dəyərli irsdir".

Çıxış edən **professor Cəlal Allahverdiyev** də Tapdıq Novruzovla bağlı xatirələrini bölüşüb: "Mən orta məktəbdə oxuduğum illərdə, 1980-ci ildə bir müəllimim var idi. Bu müəllimimiz İrəvan Türk Pedaqoji Məktəbində Tapdıq müəllimlə dərs deyən dəyərli ziyalılardan biri idi. Həsən Şəkərəliyev və Əhliman müəllim də həmin məktəbdə fəaliyyət göstərən görkəmli pedaqoqlardan idilər. Onlar illər sonra xatirələrindən danışdıqda İrəvan azərbaycanlı pedaqoji məktəbinin adını da xüsusilə çəkərdilər. Bu adlar mənim yaddaşıma məktəb illərindən dərin iz salıb. Mən 2004-cü ildə "İrəvanda Azərbaycan ədəbi mühiti" mövzusunda namizədlik dissertasiyası üzərində işləyirdim. Bu dövrdə elmi rəhbərim mərhum professor Qara Namazov idi. Bir gün arxiv materiallarından bəhs edərkən Qara müəllim mənə məsləhət gördü ki, Qərbi Azərbaycanda fəaliyyət göstərən və oradakı ədəbi, mədəni, ictimai mühitin fəalları olmuş ziyalılarımızla əlaqə saxlayım. O, Hidayət Orucov, Həsən Mirzəyev, Teymur Əhmədov və Tapdıq Novruzov kimi dəyərli şəxslərin adlarını çəkərək onların həmin mühitin canlı şahidləri olduğunu qeyd etdi. Bu dəyərli şəxslərlə söhbətlər zamanı həmin dövrün ədəbi-mədəni həyatı ilə bağlı maraqlı və dəyərli məlumatlar əldə etdim. Elə Tapdıq müəllimlə tanışlığım da bu zamandan başladı".

**"Respublika" qəzetinin baş redaktoru Hümbət Musayev** çıxışında Tapdıq Novruzovun yaradıcılığından söhbət açıb: "Kitabın üz qabığından bizə baxan təbəssüm dolu baxışlar insanın qəlbini isidən bir mənzərədir. Həqiqətən də o baxışlar insanın ürəyini riqqətə gətirir. Tapdıq müəllimin yaradıcılığı bu baxışların təcəssümüdür - səliqəli, səmimi və diqqətcil".

Baş redaktor Tapdıq müəllimlə birlikdə iş təcrübəsini də bölüşdü: "Biz uzun illər birgə çalışmışıq. O, elə gözəl, səliqəli yazılar yazırdı ki, onun xəttini siz görsəydiniz, sözün həqiqi mənasında, heyran olardınız. O yaşda insan əsl hüsnxət qaydasında elə yazırdı ki, adam həmin yazılarda düzəliş etməyə qıymırdı. Yazılarının məzmunu da xətti qədər mükəmməl idi. Haqlı olaraq deyirlər ki, xəttin gözəlliyi də insanın savadı ilə mütənasibdir. Əsasən "Sovet Ermənistanı" qəzetindəki yazılarla bənzər mövzularda yazardı. Həmçinin bizim redaksiyada Teymur Əhmədov, Qılman İlkin, Həbib Həsənov, Tapdıq Novruzov kimi bir çox ziyalılarla da işləmək, onlarla olan söhbətlər və xoş xatirələr bir anlıq sanki "Sovet Ermənistanı" qəzetinin redaksiya iclasını xatırladırdı".

Sonda Hümbət Musayev Tapdıq müəllim haqqında kitabın ərsəyə gəlməsində əməyi olan hər kəsə, xüsusilə də Vahid Novruzova təşəkkür edib.

Daha sonra **Fizika-riyaziyyat elmləri doktoru, professor Niftalı Qocayev** qeyd etdi ki, insanlar haqqında danışanda bəzən söz tapmaq çətin olur, amma elələri var ki, onlar haqqında nə qədər danışsan azdır. Tapdıq müəllim məhz belə şəxslərdən biridir: "Bu kitab onun həyatını qısa şəkildə əks etdirir, lakin əsl şəxsiyyətini tam təsvir etmək çətindir. Tapdıq müəllim ailəvi dostumuz olmaqla yanaşı, dəyərli ziyalı və nümunəvi insan idi. Onunla hər görüş yeni bilik və təcrübə demək idi. Həm qayğıkeş ata, həm də təmənnasız dost kimi seçilirdi. Dostluğa verdiyi dəyər misilsiz idi. Bu tədbir onun əziz xatirəsinə həsr olunub. Tapdıq müəllim hər zaman yaddaşımızda yaşayacaq və nəsillərə örnək olacaq".

Tədbirdə **Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor Vahid Novruz** ilk növbədə Prezident İlham Əliyevə xüsusi təşəkkürünü bildirib: "Əgər Qərbi Azərbaycan İcması yaranmasaydı və onun fəaliyyətinə dövlət tərəfindən bu qədər böyük dəstək verilməsəydi, bu gün bu uğurları qeyd edə bilməzdik. Bu dəstək sayəsində gənclərimiz və yeniyetmələr bir-birilərini daha yaxşı tanıyır, birliyimiz möhkəmlənir. Bu yalnız Qərbi Azərbaycan üçün deyil, bütövlükdə ölkəmiz üçün çox əhəmiyyətlidir". Vahid müəllim nitqinin sonunda tədbir iştirakçılarına dərin minnətdarlığını ifadə edib.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**